# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №17 (87) • 07.05.2012


AzadliqRadiosu.az®


**Azərbaycan ən çox senzura olan 16 dövlət sırasında** səh.2

**Milli Məclisdə anti-Almaniya ovqatı** səh.5

**Президент Чехии отказался ехать в Украину** səh.7

**İctimai Palata «Eurovision» vaxtı aksiyalar keçirmək istəyir** səh.8

Taksi sürücüsü: **«Thank you, very good, good morning»** səh.14

**Müsəlmana harada rahatdır- Avropada, ya Azərbaycanda?** səh.15


## Maraqlı videolar

- ATƏT Azərbaycan polisinə nə öyrətdi? (250 Plyus)
- Самые дорогие картины мира
- Bakı sakinlərinin 1 may xatirələri

**www.AzadliqRadiosu.az**

## İrana gedən iki Azərbaycan şairi həbs edildi



səh.12

## Evini kirayə verənlər ümidlə «Eurovision»u gözləyir

*«Son iki həftədə müraciət edən xarici vətəndaşların sayı çoxalıb. Son bir həftədə 800 manata verilən kirayə evlərin qiyməti artıb 1000 manat olub. Gündəlik 30-35 manata verilən kirayə ev isə 45-50 manat olub. Ev sahibləri «Eurovision» fonunda potensial müştəriləri gözləyirlər. Ona görə də qiyməti qaldırıblar».*

səh.4

Keçid




Mətyu Brayza: **"Azərbaycan rəhbərliyinin müharibə etmək niyyəti yoxdur"** səh.6

**Qızıl mədənlərində Əliyevlərin payı** səh.9-10

Gülər Əhmədova: **«Azərbaycan prezidenti qəti mövqedə olan bir insandır»** səh.8

**Həkimlərin rüşvət üstündə tutulduğu bildirilir** səh.14



Arxiv foto

# İlham Əliyev və Vasif Talıbovun adı «mətbuat yırtıcıları» siyahısında

*Sərhədsiz Reportyorlar 3 May – Beynəlxalq Mətbuat Azadlığı Günündən istifadə edərək jurnalistlərə qarşı təzyiqləri dayandırmağa çağırır və özünün «Mətbuat Yırtıcıları» siyahısını yeniləyib. Siyahı bu il bir qədər də genişlənib və «mətbuat yırtıcıları»nın sayı 41-ə çatıb. «Bizim cinayətlərin şahidi olmasın» və «Bizdən başqa heç kəsin səsi eşidilməsin». Bu, avtoritar rejimlərin və informasiya azadlığına düşmən kəsilən silahlı qrupların əsas şüarıdır.*

2012-ci ildə bu zərərli «klub»a yeni üzvlər qoşulub. Nigeriyada terror yayan islamçı qrup Boko Haram, Misirdə Hüsnü Mübarəki əvəzləyən Misir Silahlı Qüvvələri Ali Şurası, Somali federal hökumətinin infromasiya naziri, Azərbaycanın Muxtar Respublikası olan Naxçıvanda hakimiyyəti əlində cəmləşdirmiş Vasif Talıbov, Pakistan xüsusi xidmət orqanları, Kim Çen İrin ölümündən sonra hakimiyyəti oğluna ötürülən Koreya prezidenti Kim Çen Un.

Son zamanlar bir ölkədə birdən artıq "mətbuat yırtıcısı" müşahidə olunmaqdadır. Azərbaycanın da adı 6 belə ölkənin arasındadır. Qeyd olunur ki, Azərbaycanda İlham Əliyev qədər gücə malik Naxçıvan rəhbəri Vasif Talıbov da azad söz düşmənidir. Hesabatda yazılır ki, Vasif Talıbov Naxçıvanı repressiya metodlarını sınaqdan keçirən laboratoriyaya çevirib ki, İlham Əliyev də onu sonradan bütün respublikaya tətbiq edir.

Bir qayda olaraq Azərbaycanın hökumət təmsilçiləri bu cür bəyanatları əsassız adlandıraraq Bakıya qarşı siyasi təzyiq cəhdi kimi qiymətləndirirlər.

# Azərbaycan ən çox senzura olan 16 dövlət sırasındadır

*Jurnalistləri Müdafiə Komitəsi güclü senzura tətbiq olunan 10 ölkənin siyahısını açıqlayıb. Siyahının əvvəlində Eritreya, Şimali Koreya, Suriya və İran gəlir. Siyahıda Qvineya, Özbəkistan, Birma, Səudiyyə Ərəbistanı, Kuba və Belarusun da adı var. Hesabatda bildirilir ki, xarici jurnalistlərin Eritreyaya gəlməsinə icazə verilmir. Yerli mətbuat isə hakimiyyətin nəzarəti altındadır. Bu ölkənin İnformasiya Nazirliyi mətbuatda gedən bütün yazılara nəzarət edir. Şimali Koreyada isə bütün daxili məlumatları rəsmi dövlət agentliyi yayır. 2006-cı ildə Suriya siyahıda 9-cu olub. Builki siyahıda isə 3-cü yerdədir. İran 4-cü yerdədir. Hər iki ölkədə xarici jurnalistlərin fəaliyyətinə qadağa qoyulur.*



Arxiv foto

Təşkilat bildirir ki, Qvineyada bütün mətbuat prezidentin nəzarətindədir. Özbəkistanda da mətbuat azad deyil. Belarusda Lukaşenko hakimiyyətinin repressiyaları sonuncu müstəqil mətbuatı gizli fəaliyyət göstərməyə məcbur edir. Təşkilat bildirir ki, bu ölkələrdə diktatura nəzarəti var. Jurnalistləri Müdafiə Komitəsi bu ölkələrlə yanaşı, senzuranın olduğu daha 6 ölkəni də nəzərdən keçirib. Bunlar Azərbaycan, Efiopiya, Çin, Sudan, Türkmənistan və Vyetnamdır.

Azərbaycanla bağlı bildirilir ki, bu ölkədə xarici və ya müstəqil yayım yoxdur, çox az jurnalist müstəqil qəzetlərdə və saytlarda işləyir. Onlar da hədə-qorxulara, saxta ittihamlar üzrə həbslərə məruz qalır.

«Azadlıq» qəzetinin redaktor müavini Sücaəddin Şərifov deyir ki, "Azərbaycanda rəsmi senzura olmasa da, müstəqil məhkəmələrin olmaması mediada senzura mühiti yaradır: "Azərbaycanda ədalətli məhkəmə sistemi yoxdur deyə, o, bəzən özünü senzura kimi büruzə verir. Elə olur ki, dövlət qurumları barədə diqqətçəkən məlumat alırıq, amma dəqiqləşdirə bilmirik. Onda bunu vermirik, bu da elə senzuradır".

Azərbaycanda rəsmi senzura 1998-ci ildə ləğv olunub.

***Kəbiran Dilavərli***

# AzadlıqRadiosunun yayıldığı ölkələr ya "qeyri-azad", ya da "qismən azad"dır



Radionun prezidenti Steve Korn

*Azadlıq və Azad Avropa Radioları Korporasiyası bildirir ki, onun müxbirlərinin əksəriyyəti beynəlxalq təşkilatların mətbuatı azad olmayan ölkələrdə çalışırlar. Bu barədə radionun 3 May Beynəlxalq Mətbuat Azadlığı Günü münasibətilə yaydığı məlumatda bildirilir. Radio qeyd edir ki, onun verilişlər yaydığı ölkələrdən 13-də medianın vəziyyətini Freddom House təşkilatı "qeyri-azad", ya da "qismən azad" kimi qiymətləndirir.*

Konkret misallar kimi məlumatda bildirilir ki, araşdırmaçı jurnalist Xədicə İsmayılova şantajla üzləşib. Buna görə hazırda ona beynəlxalq insan haqları təşkilatları və media orqanlarından dəstək gəlir. Onun çalışdığı Azərbaycanda vəziyyəti Freddom House "qeyri-azad" adlandırıb. Azərbaycan medianın vəziyyətinə görə 197 ölkə arasında ən sonlarda - 172-ci sırada qərar tutur.

Radionun prezidenti Steve Korn deyir: "Xədicənin başına gələnlər bir daha sübut edir ki, dünyada media azadlığı sahəsində görüləsi işlər hələ çoxdur. Belarusdan İrana, Mərkəzi Asiyadan Rusiyaya, Qafqaza, Əfqanıstana və Pakistana qədər böyük bir coğrafiyada bizim jurnalistlərimiz təhdidlər, bəzən isə daha ağır şərtlər daxilində çalışırlar".

# İ.Əliyev BMT Təhlükəsizlik Şurasında çıxış edib



İlham Əliyev

*Mayın 4-də BMT-nin Təhlükəsizlik Şurasının iclasında terrorizmlə mübarizədə beynəlxalq səyləri gücləndirmək müzakirə olunub. İclasa Azərbaycan prezidenti İlham Əliyev sədrlik edib. İlham Əliyev deyib ki, Azərbaycan beynəlxalq terrorizmi dolğun şəkildə müəyyən edən beynəlxalq razılaşmanın əldə olunmasını vacib sayır. Belə razılaşma terrorizmlə mübarizədə effektiv vasitə olardı.*

Azərbaycan prezidentinin sözlərinə görə, terrorizmin və beynəlxalq terrorizmin nə demək olduğunu dəqiq müəyyən edən saziş bir sıra vacib məsələlərə ünvanlana bilərdi, o cümlədən terrorist fəaliyyətinin təşkili, maliyyələşməsi, təlim keçilməsi, həvəsləndirilməsi kimi hərəkətlərdən dövlətləri çəkindirərdi.

İlham Əliyevin BMT-yə səfərinə etiraz olaraq onlarla erməni Nyu-Yorkda BMT binası qabağında etiraz nümayişi keçirib. Nümayişin təşkilatçısı Amerikanın Erməni Milli Konqresinin üzvü Nazaret Markaryan deyib ki, "prezident Əliyev BMT-nin Təhlükəsizlik Şurasındakı mövqeyindən Ermənistana təzyiq, bizim haqları danmaq üçün istifadə edir. Biz İlham Əliyevə, onun aqressiv siyasətinə etiraz edirik".

***Elxan Nəsibli***

# Amnesty International: «Azərbaycanda 18 vicdan məhbusu var»

*Beynəlxalq Mətbuat Azadlığı Günü ərəfəsində Amnesty International təşkilatı Azərbaycanda ifadə azadlığı pozuntularına dair hesabat yayıb. «Azərbaycan hakimiyyəti «Eurovision»ın uğurlu keçməsi üçün narazıların səsini kəsməkdə qərarlıdır» adlı hesabatda bildirilir ki, bu ölkədə ictimai toplantılar zorakılıqla dağıdılıb, jurnalistlər və insan haqları müdafiəçiləri qorxudulub, həbsə atılıb və hətta dövlət adamları tərəfindən döyülüb.*

**«EUROVİSİON» QABAĞI SÖZ AZADLIĞINA HÜCUMA SON QOYULMALIDIR**

Ötən ilin Beynəlxalq Söz Azadlığı Günündən sonra Azərbaycan səndələyə-səndələyə beynəlxalq səhnəyə çıxıb – bu il «Eurovision» müsabiqəsinə ev sahibliyi etmək hüququ qazanıb, BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Hökumət milyonlarla dollarlıq neft gəlirini millətinin müasir, proqressiv və demokratik imicini yaratmaq üçün PR kampaniyasına xərcləyib.

Ancaq Azərbaycanı idarə edən avtoritar oliqarxların hakimiyyəti daha da möhkəmlənib; onlar tənqidi səsləri susdurmaqda qətiyyətlidirlər. Amnesty international indi Azərbaycanda 18 vicdan məhbusunun olduğunu deyir: 14 fəal ötən ilin dinc aksiyalarında həbs olunub, iki jurnalist və iki hüquq müdafiəçisi isə bu yaxınlarda uzunmüddətli həbs cəzası alıblar.

Amnesty International son hesabatını iki ay bundan əvvəl verib, o vaxtdan bəri hakimiyyət narazılara daha çox hücuma keçib. Qurum bildirir ki, Bakının mərkəzində ictimai aksiyalara icazə verilmir, zorakılıqla dağıdılır; siyasi səbəblər və uydurma ittihamlarla təqib olunan hökumət tənqidçilərinin və müxalifət fiqurlarının sayı artıb. Son iki ayda jurnalistlər və insan haqları müdafiəçiləri qorxudulub, təqib olunub və dövlət adamları tərəfindən döyülüb.

Bütün bunlara baxmayaraq, Avropa Yayım Birliyi «Eurovision» hazırlıqları üçün hakimiyyətlə sakitcə işləyir. Bu media azadlığı «çempionu» Azərbaycan jurnalistlərinin qaldırdığı məsələlərə müdaxilə etməyib və təmsil etməli olduğu dəyərləri müdafiə etməyib.

Azərbaycan hakimiyyət rəsmiləri bir qayda olaraq beynəlxalq qurumların hesabatlarında deyilənləri qəbul etmir, onların mövqeyini qeyri-obyektiv və qərəzli adlandırır.

# Ermənistanda parlament seçkiləri keçirilib

*Dünən Ermənistanda parlament seçkiləri keçirilib. Səsvermədən əvvəlki rəy sorğularına görə, «Respublika» partiyası ilə onun hakim koalisiyadakı müttəfiqi «Çiçəklənən Ermənistan» partiyası 60 faizdən artıq səs toplayacaq. Eyni zamanda müxalifətdə olan keçmiş prezident Levon Ter Petrosyanın «Milli konqres» partiyasının parlamentə düşəcəyi gözlənilir.*

Seçkinin gedişini ATƏT-dən 300-dən çox beynəlxalq müşahidəçi izləyib. Hakimiyyət seçkinin azad və ədalətli olacağını bəyan edib. ATƏT 2007-ci ildə Ermənistanda keçirilmiş parlament seçkisinin beynəlxalq standartlara cavab vermədiyini bildirmişdi.

**Seçkinin nəticələrini AzadliqRadiosu.az saytında oxuyun.**



Nikolas Sarkozy və Francois Hollande

# Fransada prezident seçkisinin ikinci mərhələsi keçirilir

*Rəy sorğularının nəticələrinə görə, seçkinin birinci mərhələsində irəlidə olan Francois Hollande yenə də rəqibi, indiki prezident Nikola Sarkozini 4 faiz qabaqlayır. Dəyişikliyin tərəfdarı olan Hoolande işsizliyin səviyyəsini aşağı salacağını vəd edir. Sarkozi isə güclü Fransanın, immiqrasiya qaydalarını kəskinləşdirməyin və "Fransız həyat tərzi"ni qoruyub saxlamağın tərəfdarıdır.*

Birinci mərhələdə 18 faizə yaxın səslə 3-cü yeri tutan qatı sağçı Jean-Marine Le Penin tərəfdarlarının kimə səs verəcəyi hələlik bəlli deyil. Amma sosialistlər deyir ki, onun səslərinin 55 faizi Sarkoziyə, 19 faizi isə Hollandeyə gedəcək.

**Seçkinin nəticələrini AzadliqRadiosu.az saytında oxuyun.**

# Evini kirayə verənlər «Eurovision»u səbirsizliklə gözləyir



Turistlər təkcə otellərdə yox, gündəlik kirayə evlərdə də qalır

*Bakıda turistlərin ən çox baş çəkdiyi tarixi abidələrdən biri Qız Qalasıdır. Abidənin yaxınlığındakı informasiya məntəqəsinin qarşısında qələbəlikdir. Məntəqənin əməkdaşı Sevinc Mirkişiyeva deyir ki, aprelin sonlarından Bakıya gələn turistlərin sayı artıb: «Aprelin sonlarından gələnlərin sayı çoxalıb. Yəqin ki, mayın ortalarından daha böyük artım olacaq».*

**OTELDƏ QİYMƏT BAHADIR**

İki gündür həyat yoldaşı ilə Rusiyadan Bakıya gəlmiş Mixail Alekseyev deyir ki, o, Bakıda özünə münasib qiymətə oteli elə də asan tapmayıb. Mixail deyir ki, o, hələ Moskvada olanda burdakı otellərlə maraqlanıb, ancaq çoxunun dolu olduğunu görüb: «İçərişəhərdə elə də böyük olmayan ailəvi oteldə yerləşmişik. Şəraiti pis deyil, kondisioneri var, sanuzel-filan, hər şey yaxşıdır. Qiyməti bir gün üçün 50 dollardır. Məncə, bu, çox yaxşı qiymətdir. İndi Bakıdakı otellərdə nömrə bronlaşdırmaq çətindir. «Eurovision»la bağlı otellərin çoxu artıq rezerv olunub. Ona görə də tapdığımız yerin qiyməti bizim üçün münasibdir».

Ancaq turistlər təkcə otellərdə yox, gündəlik kirayə evlərdə də qalır. Sloveniyadan olan Yanik Bıçkov deyir ki, burdakı otel qiymətləri ona baha göründüyü üçün evdə qalmağa üstünlük verib: «Bakıya iki gündür gəlmişəm. Burada təxminən iki həftə qalacağam. Gəlməmişdən əvvəl Bakıdakı otelləri araşdırdım, qiymətlər mənə baha gəldi. Ona görə də qərara aldım ki, evdə qalam. Pis deyil, şəraiti normaldır, qiyməti də 65 dollardır».

**EVDƏ ŞƏRAİT YAXŞIDIR**

Təbrizdən olan Arif Hüseyni isə bir həftədən çoxdur ailəsi ilə birlikdə Bakıda şəhərin mərkəzində kirayə evdə qalır: «Bizim qaldığımız evin bir günü 60 manatdır. İrana baxanda bahadır. İranda bu qiymətə otel olur. Ancaq ev rahatlığı



Bakı

başqadır. Otel otaqları kiçik olur. Adam tərpənəndə o birisinə dəyir. Evdə isə rahatlıqdır, şəraiti yaxşıdır. Ona görə də evdə qalırıq».

Bu günlər ev elanları yerləşdirən qəzetlərdə belə elanlarla rastlaşmaq olur: «Eurovision» ərəfəsindəki qonaqlarımız üçün...».

Daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov deyir ki, son iki həftə ərzində Bakıda orta və bahalı mənzillərdə kirayə evlərin qiyməti artıb. Bu, şəhərin mərkəzindəki birinci, qismən də ikinci zonaya aiddir. Nüsrət İbrahimov deyir ki, yerli əhaliyə hesablanmış kirayə evlərin qiymətində isə artım yoxdur:

**800 MANATLIQ EV 1000 MANAT OLUB**

«Son iki həftədə müraciət edən xarici vətəndaşların sayı çoxalıb. Son bir həftədə 800 manata verilən kirayə evlərin qiyməti artıb 1000 manat olub. Gündəlik 30-35 manata verilən kirayə ev isə 45-50 manat olub. Ev sahibləri «Eurovision» fonunda potensial müştəriləri gözləyirlər. Ona görə də qiyməti qaldırıblar».

Ev alqı-satqısı ilə məşğul olan Fəridə Əliyeva isə deyir ki, indinin özündə də gündəlik kirayə evlərin qiymətində artım var. İndiki qiymətlər 50-100 manat arasında olsa da, bir neçə gündən sonra qiymətlərdə daha çox artım gözlənilir:

**QİYMƏT YENƏ QALXACAQ**

«Ev sahibləri «Eurovision»u gözləyirlər ki, pul qazansınlar. Həmin mənzillər yüksək səviyyədə olacaq. Ancaq qiymətlər indiki qiymətlərdən artıq olacaq. Ən azı 150-200 manatdan başlayacaq. Bu evlər 2-3-4 otaqlı, təmirli və hər şəraiti olan evlərdir. Qiymətlər sırf o vaxtlar artacaq. «Eurovision» ərəfəsində müraciət edən müştəriləri ayın ortasından gözləyəcəyik. İndiki qiymətlərlə həmin vaxtkı qiymətlər arasında 2-3 dəfə artım olacaq».



İndi Bakıdakı otellərdə nömrə bronlaşdırmaq çətindir

Ev alqı-satqısı ilə məşğul olanlar deyir ki, «Eurovision» ərəfəsində çox adam evini daha baha kirayə vermək həvəsinə düşüb. Elə Bakı sakini Əmirağa Paşayev deyir ki, indiyə qədər evini gündəlik 40 manata kirayə verib. İndi isə qiyməti qaldırıb: «Həmişə 40 manata verirdim. İndi 50 manata versəm, yaxşı olar».

***Kəbiran Dilavərli***

# Heydər Əliyev Fondundan Afrikaya 50 min avro yardım



Heydər Əliyev Fondunun binası

2012-ci ilin aprel ayında Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq humanitar fəaliyyət çərçivəsində Afrika İrsi Məktəbinin (EPA) inkişafı üçün 50 min avro məbləğində maliyyə yardımı göstərilib. Bu barədə AzərTac məlumat yayıb. Məlumatda qeyd olunur ki, mədəniyyət abidələrinin mühafizəsi və bərpasının öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin və Afrika İrsi Məktəbinin direktorları yardıma görə Mehriban Əliyevaya təşəkkür məktubları ünvanlayıblar. Təşəkkür məktubunda Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Afrika İrsi Məktəbi ilə yaxından tanış olmaq üçün Beninə səfərə və EPA-nın Yüksək Himayədarlar Şurasının üzvü olmağa dəvət edilib.

# Milli Məclisdə anti-Almaniya ovqatı


Arxiv foto

**Milli Məclisin mayın 1-də keçirilən iclasında spikerin birinci müavini Ziyafət Əsgərov deyib ki, Azərbaycan müxalifətinin Azərbaycanı istəməyən bəzi xarici qüvvələrlə əlbir olduğu ortaya çıxıb. Z.Əsgərov bildirib ki, bununla bağlı əllərində kifayət qədər fakt var. Həmin faktları vaxtı gələndə açıqlayacaqlar. O deyib ki, müxalifət ən azı «Eurovision» mahnı müsabiqəsi, dövlətçilik xətrinə aksiyaları bir ay ləngidə bilərdi: «Amma Almaniyada baş verənlər, verilən bəyanatlar göstərdi ki, müxalifət beynəlxalq təşkilatların marağına uyğun hərəkət edir».**

Z.Əsgərovun sözlərinə görə, Almaniyada olduğu kimi, Azərbaycanda da mətbuat müstəqildir: «Nə üçün Almaniya mətbuatı Azərbaycanla bağlı tənqidi yazılar yazanda bu normal qarşılanır, amma Azərbaycan mətbuatı yazanda Almaniya səfirliyi buna reaksiya verir, bunu Almaniyaya qarşı aparılan kampaniya kimi qiymətləndirir?!».

Deputat Çingiz Qənizadə isə deyib ki, Almaniyadan Azərbaycana olan tənqidlərin önündə Almaniyanın Ombudsmanı və Azərbaycandakı bəzi şəxslər dayanır. Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədov isə çıxışında qeyd edib ki, Almaniyada bəzi qüvvələr Azərbaycana qarşı taktika qurub, Almaniyanın Azərbaycandakı səfiri də bu taktikanın iştirakçısıdır. YAP icra katibinin müavini Mübariz Qurbanlı isə Almaniyanın Azərbaycandakı səfirini ölkənin daxili işlərinə qarışmaqda ittiham edib. Deyib ki, bu, beynəlxalq konvensiyalara ziddir. Deputat Fuad Muradov da Almaniya Ombudsmanının Qarabağ problemindən danışmamasını, Azərbaycanda insan haqlarının pozulduğunu iddia etməsini yersiz saydığını bildirib.

**OQTAY ƏSƏDOV ŞTRASSERƏ CAVAB VERDİ**


Oqtay Əsədov

Milli Məclisin mayın 1-də keçirilən iclasında çıxış edən millət vəkilləri Almaniyanın, onun diplomatlarının Azərbaycana mənfi münasibət bəsləməsindən danışıblar. Parlamentin spikeri Oqtay Əsədov deyib ki, AŞPA-nın Azərbaycandakı siyasi məhbuslar üzrə həmməruzəçisi Kristof Ştrasserin Ukraynada keçiriləcək futbol üzrə Avropa çempionatını, Belarusda keçiriləcək hokkey çempionatını və Azərbaycanda keçiriləcək «Eurovision» mahnı müsabiqəsini boykot etməyə çağırışı onun səviyyəsinin göstəricisidir.

Spiker deyib ki, Ştrasser və Almaniyanın Ombudsmanı Azərbaycana qərəzlə yanaşır, ölkəyə təzyiq göstərmək istəyir. Avropa Şurası Parlament Assambleyasının Azərbaycandakı siyasi məhbuslar üzrə həmməruzəçisi Kristof Ştrasser öz bloqunda «Eurovision» mahnı müsabiqəsini boykot etmək təklifini Azərbaycanda insan haqlarının pozulması ilə əlaqələndirib.

**ALMANİYA ÖZ OMBUDSMANININ İŞİNİ DƏSTƏKLƏYİR**

Xarici İşlər Nazirliyi (XİN) bu ölkənin Ombudsmanı Markus Löning'ə qarşı Azərbaycanda səslənən ittihamları inkar edir. Məlumatı Almaniyanın «Süddeutsche Zeitung» qəzeti yayıb. Almaniyanın Bakıdakı səfirliyinin mətbuat katibi Aytəkin Məhərrəmova AzadlıqRadiosuna bildirib ki, XİN-dən bu açıqlama qəzetin sorğusuna əsasən verilib.

Almaniya XİN-in mayın 3-də verdiyi açıqlamada qeyd olunur: «İnsan haqları üzrə müvəkkilin vəzifəsi bütün dünyada insan haqları, əsas hüquqlar və mətbuat azadlığına riayət olunmasında mövcud çatışmazlıqlara dair danışmaqdır. Xarici işlər naziri Gido Vestervelle ombudsmanın əhəmiyyətli işini dəstəkləyir, şəxsən öz görüşlərində insan haqları və əsas azadlıqlar mövzusuna toxunur».

***İlqar Rəsul***

# Almaniyanın dostları və əleyhdarları «Facebook»da

Azadlıq FM



**AzadlıqRadiosunun** yeni layihəsi **Facebook** məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, **Facebookda** xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu günlərdə Azərbaycan hakimiyyətində aparılan anti-Almaniya kampaniyasına əks-reaksiyalar **«Facebook»** səhifələrindən də gəlir. Bir qrup «**Facebook»** istifadəçisi **«Almaniyanın dostları»** səhifəsini yaradıb. **Azadlıq FM-də** bu mövzu müzakirə edilib.

**«Almaniyanın dostları»** səhifəsinin yaradıcı Zöhrab İsmayıl bildirdi: «Rəsmi mətbuat, «Yeni Azərbaycan» qəzeti yazır, fikir formalaşdırmağa çalışır ki, Almaniya Azərbaycana qarşı kampaniya aparır. Biz də fikirləşdik ki, görək sıravi adamlar nə fikirləşir. Bu qrupu yaratmaqda məqsədlərdən biri də hökumət mediasında gedən anti-alman kampaniyasına etiraz etməkdir...».

«Sabah» Vətəndaş Hərəkatının sədri Turan İbrahimovun mövqeyi belə oldu: «Səhifənin yaradılması müxalifətin zəifliyinin, acizliyinin göstəricidir. Xarici televiziyada Azərbaycan hakimiyyəti əleyhinə 2 dəqiqəlik süjet gedəndə müxalifət bunu qələbə kimi qarşılayır. Bu, məndə qıcıq yaradır. Mən də vətəndaş kimi istəyərdim ki, ölkə müxalifətinin təsir imkanları daha güclü olsun...».

**Müzakirəni tam olaraq AzadlıqFM-də dinləyin.**

# Mətyu Brayza: "Azərbaycan rəhbərliyinin müharibə etmək niyyəti yoxdur"



Mətyu Brayza

**"ABŞ-ın Cənubi Qafqaz siyasəti enerji, təhlükəsizlik və daxili islahat maraqları üzərində qurulsa da, daxili islahatlar əsas prioritet olmalıdır". ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, indi Beynəlxalq Müdafiə Araşdırmaları Mərkəzinin direktoru Mətyu Brayza Vaşinqtonda Jamestown Fondunda "Amerika, Avropa və Cənubi Qafqaz: Dəyişən dünyada tərəfdaşlıq qurmaq" mövzusunda keçirilən dəyirmi masada belə deyib.**

### İSLAHATLAR ÖNƏMLİDİR, AMMA...

Ancaq Brayza Azərbaycanla bağlı məsələdə daxili islahatlara həddindən çox diqqət üzündən digər sahələrdə geriləmə olduğunu deyib: "Daxili islahatlar əsas prioritet olmalıdır. İslahatlar məsələsində enerji və təhlükəsizlik məsələsində olduğu qədər irəliləyiş əldə etməsək Cənubi Qafqaz ölkələri ilə davamlı əməkdaşlıqdan söhbət gedə bilməz. Çünki orada daxili sabitlik olmayacaq. Ancaq eyni zamanda, mənim fikrimcə, biz son bir neçə ildə bəzi ölkələrdə daxili islahatlar məsələsinə o qədər aludə olmuşuq ki, bəzən oradakı enerji və təhlükəsizlik maraqlarını yetərincə inkişaf etdirməmişik. Xüsusilə Azərbaycan, həmçinin Gürcüstan misalında belədir. Haradakı daxili islahatlar ləng gedir və ya geriləmələr var".

### "ƏLİYEV MÜHARİBƏ ETMƏK FİKRİNDƏ DEYİL"

Brayza bildirib ki, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll etmək niyyəti yoxdur. Azərbaycan rəhbərliyi – Prezident İlham Əliyev iqtisadi dəyişikliklər yolu ilə ölkənin qüdrətini artırmaq tərəfdarıdır və bu üzdən onların yeni müharibəyə girəcəyini düşünmürəm. Brayza Azərbaycan və Ermənistanın hərbi ritorikadan, sadəcə, danışıqlar prosesində bir taktika olaraq istifadə etdiklərini də deyib.

Azərbaycana səfir gəlməzdən əvvəl ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yaratdığı Minsk Qrupunda həmsədr olan Brayza münaqişənin həllindəki problemlərdən də danışıb. Onun fikrincə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda əsas problem prezidentlərin bir-birinə etimad göstərməməyidir.

O deyir ki, nə qədər ki, ABŞ hökuməti şəxsən, ən yüksək səviyyədə, təbii ki, Minsk Qrupundakı digər həmsədr dövlətlərin də dəstəyi ilə tərəfləri - Əliyev və Sarkisyanı bir masada oturub, bir-birinə güvənməklə danışıqların vacibliyinə inandırmır, irəliləyiş gözləmək də düzgün deyil.

### TÜRKİYƏ-ERMƏNİSTAN SƏRHƏDLƏRİ

Brayzanın sözlərinə görə, "Biz nə qədər Türkiyə və Ermənistan münasibətlərinin yaxınlaşmasını istəsək də, Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyiş olmayınca bu mümkünsüzdür. Burada çox sadə məntiq var. Türkiyə Ermənistanla sərhədlərini Azərbaycanla həmrəylik üçün bağlayıb və vəziyyət dəyişməsə sərhədlər açılmayacaq. Türkiyə hökuməti bir ara Azərbaycan tərəfinin etirazına baxmayaraq bəzi danışıqlara girsə də, bunun real olmadığını anlayıb vaz keçib. Söhbət heç yekun sülh sazişindən də getmir, sadəcə, münaqişənin həllində önəmli irəliləyiş olmalıdır".

### "ABŞ QARABAĞDAKI ETNİK TƏMİZLƏMƏNİ SANKİ GÖRMÜR"

Jameston Fondunun eksperti Vladimir Socor isə deyib ki, ABŞ-ın Qafqazdakı enerji maraqlarının gerçəkləşməsinə mane olan əsas amil Rusiyadır. Rusiya faktiki olaraq regionda donmuş münaqişələrin indiki vəziyyətdə qalmasını inhisara alıb. Socorun sözlərinə görə, Qarabağ münaqişəsi ilə bağlı bir yanlışlıq da var: "Qarabağ münaqişəsi təkcə həll olunmamış münaqişə deyil. Qarabağda həmçinin İkinci Dünya müharibəsindən sonra Avropada ən böyük etnik təmizləmə aparılıb. 100 min azərbaycanlı evlərindən qovulub. ABŞ hökuməti ümumilikdə dünyada etnik təmizləməyə qarşı çıxsa da, bəzən hərbi, bəzən də bəyanatlar yolu ilə bunun qarşısını alsa da, Azərbaycanla bağlı vəziyyət sanki diqqətdən uzaqda qalıb. İkinci Dünya müharibəsindən sonra ən geniş etnik təmizləmə, Avropanın və regionun ən böyük qaçqınlar ordusu faktına yetərincə diqqət yetirilmir".

### "CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİK VAKUUMU YARANIB"

Socor bildirib ki, NATO yanlış siyasətlərlə faktiki olaraq Cənubi Qafqazda qatarı qaçırıb, imkanı əldən verib. NATO-nun Avropanın birbaşa qonşuları – Ukrayna, Moldova, Cənubi Qafqazla bağlı heç bir təhlükəsizlik planı, burada mövcudluq şansı yoxdur: "NATO buradan uzaqda qalmaqla Avropa üçün vacib enerji dəhlizində, Cənubi Qafqazda təhlükəsizlik vakuumunun – boşluğunun yaranmasına göz yumub. Bir azdan keçiriləcək Çikaqodakı NATO sammitində bu cür müzakirələri eşitməyəcəksiniz. Çünki NATO sammitlərində atılan addımlar təkrar gözdən keçirilmir və ya səhvlər etiraf olunmur. Ancaq artıq səhvlərin araşdırılıb, vəziyyətin düzəldilməsi üçün səylər artırmaq vaxtı çatıb".

Socor bildirib ki, NATO ən azından Gürcüstan məsələsində fəal olmalıdır. Onun fikrincə, Gürcüstan ordusunu müasirləşdirmək, onları sırf müdafiə üçün lazım olan güclü silahlarla təmin etmək lazımdır ki, Gürcüstan özünü müdafiə edə bilsin. Vladimirin Socorun sözlərinə görə, yəqin bəziləri xatırlayır ki, 2008-ci ilin avqustunda Gürcüstanın ən müasir təlim görmüş 2300 əsgəri İraqda ABŞ əsgərləri ilə yanaşı vuruşurdu, halbuki müharibənin getdiyi öz ölkəsində ola bilərdilər.




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını azadliqradiosu.az saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Вафа Гулузаде: Иран поддерживал Армению

## Иерусалим и Баку сближаются

На минувшей неделе в Баку побывал с официальным визитом министр иностранных дел Израиля Авигдор Либерман. Там он заявил, что сообщения о тесном военном сотрудничестве двух стран, включающем поставки техники в Азербайджан, не соответствуют действительности. Либерман признал, что в целом отношения между Иерусалимом и Баку развиваются очень динамично во всех сферах. На эту тему рассуждает президент Фонда политических исследований Каспийского региона Вафа Гулузаде.



Министр иностранных дел Азербайджана Эльмар Мамедъяров (справа) и Авигдор Либерман, Баку, 9 февраля 2010

- Хотел бы отметить, что в регионе у нас происходят очень тревожные события, которые заключаются в том, что Иран, с одной стороны, сближается с союзником России – Арменией, при этом являясь союзником России. Иран резко возражает против сближения Азербайджана с Израилем. В Азербайджане был министр иностранных дел Авигдор Либерман. Состоялись важные переговоры, во время которых обсуждался и вопрос об Иране, который тревожит Израиль, и в то же время тревожит Азербайджан. Я считаю, что треугольник – это союз России, Ирана и Армении, которая фактически находятся в составе России. Поэтому Иран оказывает Армении огромную помощь - и горючим, и газом, и различного рода экономическими продуктами, которые приемлемы для Армении (ведь Иран это не Европа, а для Армении иранская продукция приемлема).

Во время войны между Азербайджаном и Арменией - фактически между Азербайджаном и Россией - Иран поддерживал Армению (Россию). Так что Ирану нечего требовать от Азербайджана. Иран оказывает давление на азербайджанское руководство, чтобы Азербайджан не развивал отношения с Израилем. Но я считаю, что азербайджанское руководство вполне правомерно развивает эти отношения, потому что Азербайджан не может быть одиноким в регионе. И отношения с Израилем сослужат хорошую службу для укрепления международных позиций Азербайджана и для того, чтобы противостоять всевозможным агрессивным актам против Азербайджана.

***Александр Касаткин***

# Президент Чехии отказался ехать в Украину



Вацлав Клаус

*Президент Чехии Вацлав Клаус отменил визит в Украину. Он должен был принять участие в саммите лидеров стран Центральной Европы в Крыму в середине мая. Пресс-секретарь Клауса подтвердил, что главная причина отмены визита - сообщения о ненадлежащем обращении в харьковской колонии с бывшим премьер-министром Украины Юлией Тимошенко.*

Ранее по этой же причине отказались от поездки на Украину президент Германии Йоахим Гаук, лидеры Австрии и Словении. Тимошенко, состояние здоровья которой во время пребывания в заключении ухудшилось, утверждает, что недавно была избита охранниками колонии.

Министерство иностранных дел Украины обвинило Германию в применении по отношению к Киеву "тактики времен холодной войны" - в связи с сообщениями о том, что германские официальные лица могут отказаться от посещения матчей футбольного чемпионата Европы, который пройдет на Украине и в Польше в июне.

# Агшин Мехтиев: «Журналисты в Азербайджане осуждены не за политвзгляды»

*Всвязи началом председательства Азербайджана в Совете Безопасности ООН, посол Агшин Мехтиев дал пресс-конференцию в Нью-Йорке, передает Turan. Журналисты задали ему несколько вопросов о внутренней ситуации в Азербайджане. В частности, вопрос:*

- Почему Азербайджан на одном из последних мест в рейтингах международных организаций по уровню свободы слова и выражений? Почему журналистов сажают в тюрьму?

На это Мехтиев ответил:

- В Азербайджане люди могут писать и говорить что хотят, в газетах нет цензуры. Что же касается журналистов, то некоторые осужденные могут называть себя журналистами, но никто из них не сидит за свои политические взгляды.

# Еще одна премия азербайджанской журналистки

Сотрудница РадиоАзадлыг Хадиджа Исмаилова получила еще одну международную премию. 3 мая Международный женский медиа фонд (IWMF) обнародовал список имен удостоенных наград «За смелость в журналистике» и «За жизненный успех». Наград удостоились четверо журналисток из Эфиопии, Палестины, Азербайджана и Пакистана, среди которых и Хадиджа Исмаилова.

IWMF заявляет, что сотрудница РадиоАзадлыгХадиджа Исмаилова удостоена награды «За смелость в журналистике» в расследованиях о коррупции и злоупотреблениях властью в элите страны. Организация напоминает, что Хадиджа была подвергнута кампании шантажа в марте этого года, причем это было далеко не первой попыткой заставить ее замолчать.

# İctimai Palata «Eurovision» vaxtı aksiyalar keçirmək istəyir


İctimai Palata

*«Biz bütün məsələləri bu il həll etməliyik, 2013-ə saxlamamalıyıq». Bu fikirləri İctimai Palatanın (İP) mayın 5-də keçirilən sessiyasındakı çıxışında Müsavat başqanının müavini Gülağa Aslanlı deyib. O, mayın 7-də İP-in Bakı Şəhər İcra Hakimiyyəti qarşısında keçirmək istədiyi piketə də toxunub: «Biz əlimizi qoynumuza qoyub gözləsək, hakimiyyət dostlarımızı həbsdən buraxmayacaq».*

G.Aslanlı təklif edib ki, mayın 13-ü və 19-u mitinq üçün şəhər rəhbərliyinə müraciət olunsun.

**«AZƏRBAYCAN HÖKUMƏTİ BİZİM XOŞ NİYYƏTİMİZİ HƏLƏ DƏ ANLAMIR»**

AXCP sədri Əli Kərimli isə deyib ki, «Eurovision» keçirildiyi vaxtda Azərbaycanda vicdan məhbuslarının həbsdə saxlanması mənfi bir haldır: «Təəssüf ki, Azərbaycan hökuməti bizim xoş niyyətimizi hələ də anlamır. Hakimiyyət beynəlxalq təzyiqlərə baxmayaraq, kütləvi həbslərə, repressiyalara davam edir».

**TƏNQİD OLUNAN MİTİNQ TAKTİKASI**

Toplantıda «20-ci sahə»də mitinq keçirməkdən imtina ilə bağlı tənqidi fikirlər səslənib. İP üzvü Mustafa Hacıbəyli deyib ki, İP mayın 6-da mitinq keçirərək prosesi 19 maya qədər aparmalıydı.

**TƏKLİF: «EUROVISION» QABAĞI ACLIQ DA OLSUN**

Sabiq baş nazir Pənah Hüseyn isə «Eurovision» günlərində 2 aprel məhbuslarının aclıq aksiyası keçirməyə hazırlaşmalarına münasibət bildirib: «Onların aclıq aksiyasına gərək yoxdur. Lazım gəlsə, biz kütləvi şəkildə aclıq aksiyası keçirməliyik. Qoy, bunların çalıbçağırdığı bir zamanda dünya görsün ki, bu ölkənin əsas siyasi gücləri, 100-lərlə insanı aclıq aksiyası keçirir».

Sessiyanın sonunda qərara alınıb ki, «Eurovision» mahnı yarışması ilə əlaqədar alternativ informasiya mərkəzi yaradılsın, həmçinin mayın 13 və 19-da mitinq keçirilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunsun.

***Maarif Çingizoğlu***

# Gülər Əhmədova: «Azərbaycan prezidenti qəti mövqedə olan bir insandır»


Gülər Əhmədova

**Hakim Yeni Azərbaycan Partiyasının üzvü, deputat Gülər Əhmədova AzadlıqRadiosunun suallarına cavab verib.**

*- Gülər xanım, mayın 3-ü - Beynəlxalq Mətbuat Azadlığı Günündə «Sərhədsiz Reportyorlar», «Amnesty International» kimi beynəlxalq qurumların yaydıqları məlumatlarda Azərbaycan insan hüquqlarının vəziyyətinə, jurnalistlərin döyülməsinə, həbs edilməsinə görə tənqid edilib. Bu tənqidlərə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndəsi kimi münasibətiniz necədir?*

- Azərbaycanda toxunulmaz bir təbəqə əmələ gəlib, onlar da jurnalistlərdir. Jurnalistlər kimə nə isə edə bilərlər, ona görə ki, jurnalistdirlər. Amma onlara heç nə eləmək olmaz. Ona görə ki, jurnalistdirlər. Belə qəribə, absurd və ritorik məqam əmələ gəlib. Jurnalistlər kiminsə şəxsi həyatına, ictimai nüfuzuna ləkə yaxa bilərlər, amma onlara gərək heç kim cavab verməsin. O baxımdan, adını çəkdiyiniz beynəlxalq təşkilatlar bu məsələləri qabardırlarsa, bu deyilənlər 1000 faizdən də artıq qeyri-obyektiv məsələlərdir. O ki qaldı kiminsə vicdan məhbusu kimi təbliğ olunmasına, bunun necə olduğunu biz artıq bilirik. Hüquq müdafiəçiləri birbirinin arasında olan bu məsələni ictimaiyyətə açıblar. Bu işi biznesə çevirən insanlar var. Bu baxımdan da həmin təşkilatların açıqlamalarını ciddi qəbul etmirəm. Azərbaycandan qabaq bir Ermənistanın da adını çəksinlər ki, orda nələr baş verir. Nədənsə bu heç kimin yadına düşmür. Bu məsələlərin hamısı Qarabağ məsələsinin başındadır və çalışırlar ki, demokratiya adı altında təzyiqlərlə Azərbaycan rəhbərliyini psixoloji cəhətdən çökdürsünlər. Azərbaycan prezidenti qəti mövqedə olan bir insandır. Bu cür məsələlərlə onu çökdürmək mümkün deyil.

*- Gülər xanım, bir yox, bir neçə beynəlxalq təşkilat eyni fikirdədir...*

- Hansı senzuradan söhbət gedə bilər. Azərbaycan mətbuatında olan biabırçılıq dünyanın heç bir ölkəsində yoxdur. Fransada, Almaniyada və ABŞ-da mətbuatın yazdıqlarına da baxın, Azərbaycan mətbuatına da. Azərbaycanı tənqid edən təşkilatların heç biri azad sözün arxasında durmur, həmin təşkilatlar onlara lobbiçilik edən maliyyə qruplarının sözlərini deyirlər. Burda Azərbaycanın təbii sərvətlərinə sahib olmaq arzusu dayanır. Fransada, Böyük Britaniyada iki gənc «Facebook»da bir-iki cümlə yazmışdı, onların hər birinə 4 il həbs cəzası verdilər. Bəs bundan niyə danışılmır?...

*- Gülər xanım, son olaraq Sərhədsiz Reportyorlar Təşkilatının mayın 3-də açıqladığı «mətbuat yırtıcıları» siyahısına toxunmaq istəyirəm. Həmin siyahıda İlham Əliyevlə Vasif Talıbovun adları var...*

- Mən yenə deyirəm, bu fikirlərin hamısı qondarma fikirlərdir. Naxçıvana getmək lazımdır, orda yaşamaq lazımdır, ab-havaya baxmaq lazımdır ki, sonra bu fikirləri deyəsən. Kim–kimə oxşayır, oxşamır, mən heç kimin yerinə cavab verə bilmərəm. Amma hər halda Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir, onun apardığı siyasət də bütün ölkədə davam etdirilir. Başqa əks-fikirlərin səslənməsi, məncə, çox yersizdir.

***Maarif Çingizoğlu***

# Qızıl mədənlərində Əliyevlərin payı

### QURUCA ADI OLAN ŞİRKƏTƏ 2,5 MİLYARD DOLLARLIQ MÜQAVİLƏ

Bu ilin sonu Azərbaycanın qərbindəki Çovdar yatağından qızıl çıxarılmasına başlanmalıdır. Bu mədənin işlənməsi üçün müqavilə (dəyəri 2,5 milyard dollardır) 2007-ci ildəki qeyri-şəffaf prosedurla AIMROC adlanan konsorsiuma verilib, hökumət bu şirkəti – Britaniya-Yaponiya-Panama konsorsiumu kimi təqdim edib. Həmin konsorsium 2007-ci ildə tələm-tələsik məhz sözügedən layihədən ötrü yaradılıb. Yeni ortaya çıxarılan sənədlərsə göstərir ki, AIMROC əslində Panamada qeydiyyatdan keçmiş və prezident İlham Əliyevin qızlarıyla bağlı olan şirkətlərin nəzarətindədir.

AIMROC bir "shell"-şirkətdir (yəni quruca adı olan).

### SON ÜMİD YERİ – PREZİDENT...

40 yaşlı Novruz Allahverdiyev Azərbaycanın qərbində - Ermənistanla həmsərhəd olan Daşkəsən rayonunun Çovdar kəndində kasıb bir daxmada yaşayır. O, Azərbaycanla Ermənistan arasında 1990-cı illərdə baş vermiş müharibə nəticəsində öz yurdundan didərgin düşmüş 800 min məcburi köçkündən biridir. Allahverdiyev və daha 60 məcburi köçkün ailəsi Çovdar kəndində sığınacaq tapıblar. Allahverdiyev daxmasının divarlarına hazırkı prezident İlham Əliyev və onun vəfat etmiş atası Heydər Əliyevin köhnə təqvimlərdən kəsilmə şəkillərini yapışdırıb.

Güzəranından gileyli olsa da, prezidentdən gileyli deyil. Deyir, ümidi onadır. İlham Əliyevin bir gün bu kəndin sakinlərinin güzəranından xəbər tutacağını, onlara gün ağlayacağını gözləyir. Novruz kişinin problemlərindən biri də, özü dediyi kimi, ingilis şirkətinin kəndin yaxınlığında mədən salması ilə bağlıdır. Deyir ki, mədən şirkəti onun torpaqlarının bir hissəsini ələ keçirib, üstəlik də kəndə gələn iki su mənbəyindən birinin qabağını kəsib, əsas kənd yolunu dağıdıb. Allahverdiyev inanır ki, prezident Əliyev ona və kəndinə kömək edəcək.

### BAİSKAR - İNGİLİSLƏR DEYİL...

Amma Allahverdiyevin bilmədikləri var. Bilmədiyi isə odur ki, problemlərinin səbəbkarı saydığı mədən şirkətində ingilislərin payı yoxdur, amma prezidentin



Novruz Allahverdiyev

ailəsinin payı var. 2006-2007-ci illərdə prezident sərəncam verib Çovdar qızıl mədəni və beş başqa yatağın işlənməsi hüququ ilə bağlı danışıqların aparılmasını, sonra isə AIMROC adlanan şirkətlə ("Azerbaijan International Mineral Resources Operating Company, Ltd.", azərbaycanca "Azərbaycan Beynəlxalq Mineral Ehtiyatların İdarə Edilməsi üzrə Məhdud Məsuliyyətli Şirkət) müqavilə bağlanmasını Ekologiya və Təbii Ehtiyatlar Nazirliyinə tapşırıb.

2007-ci il iyunun 5-də İlham Əliyevin başçılıq etdiyi Yeni Azərbaycan Partiyasının nəzarətində olan parlament növbədənkənar iclas keçirib bu müqaviləni təsdiqləyib. Azərbaycan büdcəsinin bu Hasilatın Pay Bölgüsü Sazişində cəmi 30 faiz payı var. 70 faiz AIMROC-a məxsusdur. Bu sazişlə hökumət mədənlərin istismarı üçün torpaq, lazımi lisenziya və vergi güzəştlərini də AIMROC-a verib. Sənəd parlamentdə müzakirə olunanda bir neçə deputat bu şirkətə niyə bu qədər imtiyaz verildiyini soruşub, amma tək-tük etirazlar çoxluğun sükutunda batıb. Deputatlar bu şirkətlərin sahibləri haqqında məlumat ala bilməyiblər.

AIMROC-un strukturundan baş çıxarmaq doğrudan da müşkül işdir. Çovdar camaatı problemlərinə bais kimi "ingilisləri" görür. Amma ingilislərin də, yaponların da ortada ancaq adı var. AIMROC-u 4 şirkət yaradıb: Londex Resources, S.A., Willy and Meyris S.A., Fargate Mining Corporation və Globex International LLP. Yaponiya şirkəti Mindeco isə layihəyə ümumi nəzarətçidir. Əslində konsorsiumda heç bir payı yoxdur. AIMROC-un sahibi olan şirkətlərdən yalnız biri Britaniyada mənzillənir. Bu, müqavilədə 11 faiz payı olan "Globex International" şirkətidir.

Amma əslində "Globex" Panamada qeydiyyatdan keçmiş 3 şirkətə məxsusdur: Hising Management SA, Lynden Management Group, Inc., və Arblos Management Corporation. Panamanın dövlət qeydiyyatı reyestrinə görə, hər üç şirkəti idarə edənlər arasında prezident Əliyevin iki qızı Leyla və Arzu Əliyevaların, eləcə də isveçrəli biznesmen Oliver Mestelan-ın adı var.

### MESTELAN KİMDİR?

Mestelanın Əliyev ailəsi ilə uzun müddətdir davam edən əlaqələri var. O, Əliyevlərlə birlikdə incəsənət tədbirləri təşkil edib. Bundan başqa, onun adı




Azərbaycanda bir sıra biznes layihələri, o cümlədən "Azərfon" mobil rabitə provayderinin təsisçisi rolunda çıxış edən Panama şirkətlərinin qeydiyyat sənədlərində keçir. Mestelan müsahibə verməkdən imtina edir.

***(davamı səhifə 10-da)***

# Qızıl mədənlərində Əliyevlərin payı

(əvvəli səhifə 9-da)

Prezident Aparatına göndərilən sorğular da, zənglər də cavabsız qalır. Ekologiya Nazirliyində isə nə yataqların qızıl ehtiyatı, nə də şirkətlərin sahibləri haqda danışmaq istədilər. İndiyədək ancaq Çovdar yatağının potensialı haqda məlumat verilib.

**"ÇOVDAR ÇÖRƏYİ"**



Daşkəsəndə filiz emalı zavodunun köhnə avadanlıqları

Çovdar özü də gəlirli yataqdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, bu yataqda 44 tondan artıq qızıl, 164 tondan artıq gümüş var. Bu da ümumilikdə 2.5 milyard dollar dəyərində sərvət deməkdir. Parlamentdə qısa müzakirə zamanı Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin rəhbəri Valeh Ələsgərov 30 il müddətinə bağlanan sazişi müdafiə edib. Elə ofşor şirkətlər məsələsinə də izah verib:

"Bu şirkətlər xüsusi təyinatla yaradılmışdır. Dünya təcrübəsi belədir, hər layihə üçün xüsusi təyinatlı şirkət yaradılır. Bu şirkətlər ya Kayman adalarında, ya da Panamada qeydiyyatdan keçirlər. Elə ofşor zonaları var ki, tanınmış banklar, maliyyə qurumları orada bir əməliyyat da keçirmir. Qanunvericiliyin dürüstlüyünə görə ofşor zonalarını hamı tanıyır. Bu şirkətlər də belə ofşor zonalarda qeydiyyatdan keçmişlər. Biri də Britaniya Krallığında qeydiyyatdan keçib. Bunlar xüsusi təyinatlı şirkətlərdir və bu işlər üçün yaradılıbdır".

Ələsgərovun sözlərinə görə, tenderin keçirilməməsi isə həmin yataqda nə qədər ehtiyatın olması barədə dəqiq məlumatın olmamasına görədir. O əlavə edib ki, tenderin əvəzinə hökumət potensial sərmayəçilərin özləri ilə birbaşa danışıqlar aparıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin baş geoloqu Ağamahmud Səmədov AzadlıqRadiosuna deyib ki, yataqlardakı ehtiyatlar barədə məlumat var, amma bunu açıqlaya bilməz.

**"AYIB OLSUN SİZƏ!"**

AIMROC-un sahibinin kim olması barədə suala Valeh Ələsgərov isə belə cavab verir: "Siz fikirləşirsiz ki, Azərbaycan hökuməti kimliyi bəlli olmayan, küçədən keçən biri ilə müqavilə bağlaya bilər?" Əliyev ailəsinin bu layihədə hər hansı marağının olması barədə suala cavabında isə Valeh Ələsgərov yalnız bunu deyərək telefon danışığını kəsib: "Ayıb olsun sizə".

AIMROC-un strukturunun digər hissələri daha mürəkkəb sxem üzrə qeydiyyatdan keçib. Panamanın Şirkətlərin Qeydiyyatı İdarəsinin sənədlərinə görə, adıçəkilən şirkətlər də rəhbərləri səviyyəsində mürəkkəb formada bir-birinə bağlıdır. Onların hamısı da kiçik Karib adası Nevisdə eyni ünvanda qeydiyyatda olan Casal Management və Tagiva Management şirkətlərinin qurumlarıdır. Casal və Tagiva isə Böyük Britaniya, ABŞ və Panamada azı 20 şirkətə sahib olub. Böyük ehtimalla bunlar yalnız şirkətlərin real sahiblərinin gizlədilməsi üçün yaradılan qurumlardır.

Azərbaycanın Vergilər Nazirliyinin qeydiyyatına görə Willy and Meyris S.A.-nı çex geoloq, Praqada çap olunan "The Journal Of Geosciences" jurnalının Baş redaktoru Mirko Vanecek təmsil edir.

**"ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN"**

Çovdarda isə yerli sakinlər prezident İlham Əliyevin həmin müəssisənin



Qızıl emalı zavodunun tikiləcəyi yerdən görüntü

açılışına gələcəyi barədə xəbəri eşidib seviniblər. Sakinlərdən biri - Pənah Hüseynov deyir ki, onlar dərdlərini dövlət başçısına çatdırmağa çalışacaqlar: "Biz eşitdiyimizə görə, prezident bu zavodun açılışına gələsidir. Çox xahiş edirik, bizim prezidentimizə çatdırın ki, burada 100 ailənin yaşadığı bu iki kəndə də baş çəksin. Biz onun bütün siyasətlərini bəyənirik. Bizi onun yanına buraxmayacaqlar. Artıq dərəcədə xahiş edirik, gəlib bizim vəziyyətimizlə maraqlansın. Bu kənddəki vəziyyəti, nələr çəkdiyimizi görsün".

Oradakı qızıl yatağının işlənməsində prezident ailəsinin də payının olmasından kənd sakinlərinin xəbəri yoxdur. Bu barədə ehtimala belə inanmırlar. "Prezidentə nə xeyri var ki? Mən inanmıram ki, xarici şirkətlər burada qızılı çıxara və aparıb prezidentə verə. İnanmıram. Bilirik ki, buranı işlədənlər xaricilərdir – ingilis işlədir," - kənd sakinlərindən biri belə deyir .

Kənddə müəllim işləyən Nurəddin Ramazanov da AIMROC-ya görə torpağının bir hissəsini itirib. Deyir 110 manat maaşla ailəsini güclə dolandırır: "11 saat məktəbdə dərs deyirəm. Bununla nə dolanacaq olur. Yeganə gəlir yerimiz o otlaq sahəsi, torpağımız idi. Onu da məcburi şəkildə əlimizdən aldılar. Hektarına da cəmi 2 min manat ödədilər. Dövlət hesabınadır. 5-6 malımız var idi. Örüşümüzü də əlimizdən aldılar. Qalmışıq belə. Qızıl zavoduna görə yolumuzu dağıtdılar. Kəndə gələn bulağımız var idi, onu da dağıtdılar. Daha burada yaşamağa şərait yoxdur. Mümkün qalmayıb".

Kənddə yaşayan qarabağlı məcburi köçkün Allahverdiyev ümid edir ki, o da həmin qızıl emalı zavodunda iş tapa biləcək. Yerli sakinlərin dediklərinə görə, orada günü 10 manata iş var. Amma hələlik müəssisədə kənd sakinlərindən çox az adama iş verilib. Kasıblığa və bu mədənlə bağlı problemlərə baxmayaraq, yerli sakinlərin çoxu talelərini Əliyevə bağlayırlar. Çovdar kəndində evlərin bir çoxunda və məktəblərdə divarlarda prezidentin portretləri var.

Kənd müəllimi Nurəddin Ramazanov deyir ki, bunların heç birindən prezidentin xəbəri yoxdur: "Prezidentin də bunlardan xəbəri yoxdur. Prezident Somaliyə yardım edən adamdı. Amma bizim öz məmurlarımız bizi Somalidən pis vəziyyətə salıblar".

Bu jurnalist araşdırmasını "Organized Crime and Corruption Reporting Project" (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi AzadlıqRadiosu ilə əməkdaşlıqda hazırlayıb.

***Xədicə İsmayılova, Nüşabə Fətullayeva***

# «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al!

**AzadlıqRadiosunun** efirində hər **şənbə saat 18-də «Qaynar Xətt»** verilişi başlayır. Burada sizin suallara hüquqşünaslar cavab verir. **28 aprel 2012-ci il** verilişində səslənən sualların bəzilərini və onların cavablarını sizə təqdim edirik. Sualları hüquqşünaslar **Xalid Bağırov və Yalçın İmanov** cavablandırıb.




**XƏSTƏXANA PULLUDURMU?**

Gəncədən Aynur: *Mən hansı dövlət xəstəxanasına gedirəm məndən pul istəyirlər. Dövlət xəstəxanası pulludurmu?*

Cavab: Səhiyyə naziri Oqtay Şirəliyevin 1 fevral 2008-ci il tarixli sərəncamı var. Həmin sərəncama görə, büdcə təşkilatlarından maliyyələşən tibb müəssisələrində tibbi xidmət tam pulsuzdur.

Qazaxdan Vaqif: *Mənim atam 3-cü qrup əlildir. Ona pensiya düşürmü?*

Cavab: 3 növ pensiya var: 1. Yaşa görə pensiya. 2. Əlilliyə görə pensiya. 3. Ailə başçısının itirilməsinə görə pensiya. Əlilliyə görə pensiya bütün qrup əlillər üçün nəzərdə tutulub.

**MÜƏLLİM AİLƏMİ TƏHQİR EDİR...**

Anonim: *Mən 9-cu sinifdə oxuyuram. Əgər müəllim məktəbdə məni və ailəmi təhqir edirsə, mən onu kimə deyə bilərəm? Ümumiyyətlə, müəllim məni təhqir edə bilərmi?*

Cavab: Təhqirə görə cinayət məsuliyyəti nəzərdə tutulub. Həmin müəllimə Azərbaycan Konstitusiyasının 46-cı maddəsini xatırlatmaq kifayətdir ki, hər bir Azərbaycan vətəndaşının öz şərəf və ləyaqətini müdafiəsi hüququ var. Konstitusiyaya görə, heç kim insan ləyaqətini alçaldan təhqirə məruz qala bilməz. Bu halda valideynlər məhkəməyə müraciət edə bilərlər. Mənəvi zərərlə bağlı iddia da qaldıra bilərlər.

**MƏNZİLİN BİR OTAGI MƏNİMDİR**

Anonim: *Mənim anam öz adına olan evin bir otağını mənə vəsiyyət edib. Qalanı, əlbəttə ki, qardaşımındır. Mən bilmək istəyirəm ki, gələcəkdə mən o bir otaqdan necə istifadə edə bilərəm. Əgər gələcəkdə qardaşımla o evdə yaşayanda mübahisə yaranarsa necə həll olunmalıdır. Əgər mən orda yaşamaq istəmirəmsə, amma eyni zamanda mənə vəsiyyət olunmuş otaqdan da necəsə istifadə etmək istəyirəmsə, bunu necə edə bilərəm. Hansı hüquqlarım var?*

Cavab: Həmin vətəndaşın o mənzilə bütün hüquqları var. Əgər ona problem yaranarsa, məhkəməyə müraciət edib istifadə qaydasını müəyyənləşdirə bilər. Orda yaşamaq istəmirsə, öz aralarında kompensasiya problemini həll edib mənzili tərk edə bilər. Yaxud da əgər kompensasiya məsələsi ilə bağlı mübahisə yaranarsa, mənzilin bölgüsü də mümkün deyilsə, məhkəməyə müraciət edib həmin mənzilin açıq hərracda satılmasını, əldə edilmiş pul vəsaitinin tərəflər arasında bölüşdürülməsini tələb edə bilər.



**BOŞANSAQ...**

Bakıdan Kəmalə: *Mən ailə qurmağa hazırlaşıram. Ev yoldaşımın adınadır. Əgər bizdə alınmasa və boşanası olsaq, necə edim ki, mənə o evdən pay düşsün?*

Cavab: Yalnız birgə nikah dövründə əldə edilmiş əmlak ərlə-arvadın əmlakı hesab edilir. Vətəndaşa məsləhət görürəm ki, nikah müqaviləsi bağlasınlar. Bizim qanunvericilikdə də belə bir müqavilə nəzərdə tutulub.

Bəhruz: *Mənim 12 sot torpağım var. Sənədləri də qaydasındadır. Lakin ətrafında mənim hasarımın içində neçə illərdir ki, özümün istifadə etdiyim əlavə 20 sota yaxın torpaq var. Onu qanuni yolla necə özəlləşdirə bilərəm? Hər tərəfdən qonşuların hasarı ilə əhatə olunub. Sənədi olmayan torpaq mənim hasarımın içindədir.*

Cavab: Torpağın sənədi yoxdursa, bu torpaq ya bələdiyyənin, ya da dövlətindir. Əgər ya dövlətin, ya bələdiyyənin torpağının zəbtindən gedirsə, bu, Cinayət Məcəlləsinin 188-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, həmin torpaqların hərrac yolu ilə alınması imkanları var. Əgər araşdırılsa, müəyyən edilsə ki, o torpağın başqa mülkiyyətçisi də var, onlarla razılaşma yolu ilə əldə edə bilər.

**OĞLUM 13 İL HƏBS CƏZASI ALIB**

Sumqayıtdan: *Oğlum namus üstə həbs olunub. 13 il iş alıb. 6 ilini yatıb. 2 azyaşlı uşağı var. Onları saxlama imkanımız yoxdur. Mən və babaları işləmirik. Onu çıxarmaq üçün nə edə bilərik?*

Cavab: Bizə aydın deyil ki, burda hansı maddədən söhbət gedir. Bu məlumat qeyd olunmayıb. Ancaq bununla belə cəzanın yarısından azad edən maddələri sadalayaq. Vaxtından əvvəl cəzadan azad edilməsi birinci əsası əfvdir. Vətəndaş əfvlə bağlı prezidentə və Əfv Komissiyasına müraciət etməlidir. Amnistiya aktları qəbul edilərkən əgər o vətəndaşın oğlunun məhkum olunduğu maddə həmin amnistiya aktına düşərsə, o zaman amnistiya ilə vaxtından əvvəl azad oluna bilər. İkinci isə, Cinayət Məcəlləsinin 76-cı maddəsi vaxtından əvvəl cəzadan azad etmənin digər əsaslarını nəzərdə tutur. Bizim ehtimalımıza görə, burda söhbət ağır cinayətdən gedir. Bu baxımdan hesab edirik ki, cəzasının dörddə üçünü çəkməlidir. Ondan sonra cəzaçəkmə müəssisəsinin rəhbərinin təqdimatı və özünün müraciəti əsasında cəzadan vaxtından əvvəl azad olunması ilə bağlı məhkəməyə müraciət edə bilər. Bir də məhkum xəstəliyinə görə vaxtından əvvəl cəzadan azad oluna bilər. Bu bütün xəstəliklərə aid deyil, Ədliyyə Nazirliyinin siyahısında olan xəstəliklər ancaq bura aid edilir.

***Hazırladı: Şəhla Sultanova***

# İrana gedən iki Azərbaycan şairi həbs edildi


Şəhriyar del Gerani və Fərid Hüseyn

*İrana səfər etmiş iki gənc Azərbaycan şairi Şəhriyar del Gerani (Hacızadə) və Fərid Hüseyn Təbrizdə mülki geyimli şəxslər tərəfindən həbs ediliblər. Bu barədə AzadlıqRadiosuna Şəhriyarın atası Hacı Mayıl Hacıyev məlumat verib. Onun sözlərinə görə, İrana poeziya festivalına gedən oğlundan və onun şair yoldaşından mayın 2-dən bəri xəbər-ətər yoxdur.*

- Şəhriyarla Fərid İrana aprelin 29-da getmişdilər. Mayın 1-də oğlum Marağadan mənə zəng etmişdi. Ertəsi gün yerli vaxtla saat 23:00-da isə onlar Təbriz-Bakı avtobusuna minib Azərbaycana qayıtmalıydılar.

Mayın 2-də onlar Təbrizdə İmişlidən olan 2 nəfərlə rastlaşıblar. Bunlar Şəhriyarın keçmiş məktəb yoldaşları olub. Dördü birlikdə həmin gün Təbrizi gəziblər. Həmin 2 nəfərin avtobusu Şəhriyargilikindən 4 saat sonra çıxmalı imiş. Axşam Şəhriyargil "Koka-kola" almaq üçün bu iki nəfərdən aralaşıblar. Elə bu vaxt mülkigeyimli şəxslər onları həbs ediblər.

*- Həmin adamlar neçə nəfər olub, özlərini necə təqdim ediblər?*

- 5-6 nəfər olublar. 2 maşında. Mülki geyimdəymişlər. Özlərini təqdim etməyiblər. Şəhriyargili maşına oturdublar ki, "bizimlə gedəcəksiz". Şəhriyargil də deyib ki, "icazə verin çantamızı götürək". Bundan sonra mülkigeyimlilər maşınları sürüblər bunların yoldaşlarının yanına. Onları da həbs ediblər. Amma o iki nəfəri sonradan azad ediblər. Düzdür, əvvəlcə qaldıqları otel otağında axtarış aparıblar, sənədlərini aparıb yoxlayıblar. Amma gecə saat 2-də onların sənədlərini qaytarıblar və onlar da Azərbaycana qayıdıblar. Şəhriyargilin həbs edilməsi xəbərini də onlar mənə çatdırıblar. Dediklərinə görə, onları həbs edənlər dövlət adamlarına oxşayırmışlar. Çünki otel otağında axtarış aparanda otel işçisinə deyiblər ki, "müdirə deyin, filankəs gəlmişdi". Deməк ki, müdir onları tanıyırmış. Yəqin ki, dövlət idarəsindən olan adamlar imiş.

*- Şəhriyarla Fəridin getdiyi Poeziya Festivalı haqda məlumatınız varmı? Harda keçirilib?*

- Məlumatım yoxdur. Bəlkə də Təbrizdə imiş, bəlkə də Marağada.

*- Sizcə, onları nə üstündə həbs edə bilərdilər?*

- Doğrusu, təsəvvürüm yoxdu nə üstündə ola bilərdi.

*- Şəhriyar əvvəllər İranda olubmu?*

- 6 dəfə olub. Ağır xəstə olan anasını müalicəyə aparanda.

*- Azərbaycanın hüquq-mühafizə orqanlarına müraciət etmisinizmi?*

- Milli Təhlükəsizlik Nazirliyinin İmişli şöbəsinə müraciət etdim, dedilər ki, öz kanalları ilə araşdıracaqlar.

***Rövşən Qənbərov***

# Baş Prokurorluq: «Məhəmməd İmanlı evində külli miqdarda rüşvət alarkən yaxalanıb»

**Baş Prokurorluğun ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Eldar Sultanov AzadlıqRadiosuna bildirib ki, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin sabiq dekan müavini, hüquq elmləri doktoru, professor Məhəmməd İmanlı evində külli miqdarda rüşvət alarkən yaxalanıb. İttihama görə, Məhəmməd İmanlı BDU-nun beynəlxalq iqtisadi əlaqələr fakültəsində (ikinci ali təhsil üçün) oxumaq istəyən Bakı şəhər sakinindən 40.000 (qırx min) manat pul tələb edib. Pul müqabilində onun BDU-nun tələbəsi olmasına imkan yaradacaqmış.**

Prokurorluğun məlumatında deyilir ki, Məhəmməd İmanlı pulu evində qəbul edib. Korrupsiya ilə Mübarizə İdarəsinin əməkdaşları evə baxış keçirən zaman 40 min manatı, əlavə olaraq 79 min dollar, 61 min manat və 13 min avro aşkar edilib. «Eləcə də iş üçün əhəmiyyət kəsb edən digər sənəd və əşyalar aşkar edilərək götürülüb», deyə - məlumatda bildirilir.


Oqtay Haqverdiyev

# Qiymətlər nə qədər artacaq?

**«İnflyasiyanın keçən il olduğu kimi, bu il də ikirəqəmli səviyyəyə çata biləcəyi gözləniləndir».**

Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında iqtisadçı-ekspert Zöhrab İsmayıl illik inflyasiyanın müzakirəsi zamanı bildirib: «2011-ci ildə bu rəqəm 10%-ə yaxın olub. 2012-ci ildə də bunun təkrarlanması mümkündür. Burda əsas açar rolu dövlət investisiya xərcləri, yəni dövlət büdcəsindən böyük xərcləmələr oynayır. O xərclərin səviyyəsi bu il daha da artıb».

İqtisadçı-ekspert Oqtay Haqverdiyevin fikrincə isə, inflyasiyanın səviyyəsi başlıca olaraq Mərkəzi Bankın siyasətindən asılıdır: «2008-ci ildən Mərkəzi Bank manatın məzənnəsinin saxlanması üçün sərt pul-kredit siyasəti aparır. İqtisadi elmi nöqteyi-nəzərdən bu, düzgün olmasa da, sosial nöqteyi-nəzərdən çox yaxşı siyasətdir. Çünki əhalinin əksəriyyəti kasıbdır. Manatın məzənnəsi stabil olanda, maaş pensiya az olsa da, əhali birtəhər dolana bilir. Bundan başqa, neftin qiyməti artdıqca dünya bazarında Azərbaycana idxal olunan malların da qiyməti artır. Bütün bunlar inflyasiyaya təsir edən amillərdir».

O.Haqverdiyev bu il də inflyasiyanın 8-9% olacağını ehtimal edir. «Eurovision»la əlaqədar may ayında bazara daxil olacaq böyük pul kütləsinin inflyasiyaya təsirindən danışan Zöhrab İsmayıl deyir ki, qiymətlərdə hansısa dəyişik olsa belə, bu, müvəqqəti xarakter daşıyacaq.

**Verilişi tam olaraq AzadlıqRadiosunda dinləyin.**

***Kamran Mahmudov, Araz Bayramov***

# Yazıçılar Birliyində mənzil davası

## Şaiq Vəli: "Bu, Yazıçılar Birliyinin növbəti fırıldağıdır"


Ədalət Əsgəroğlu

**"Pen klub" proqramındakı debata Yazıçılar Birliyinin mətbuat katibi Ədalət Əsgəroğlu, mənzil növbəsində adı olan narazı yazarlar Ramiq Muxtar, Şaiq Vəli, Əsəd Cahangir qatılıblar. Canlı efirə AYB sədri Anarın müşaviri Rauf Aslanov, eləcə də şair Qəşəm Nəcəfzadə zəng edərək mənzil bölgüsü ilə bağlı narazılıqlara kəskin münasibətlərini bildiriblər.**

Ədalət Əsgəroğlu bildirdi ki, keçmiş prezident Heydər Əliyevin göstərişi ilə AYB-yə verilmiş torpağa yerli icra hakimiyyətindən tikinti üçün sərəncam verilməsi üçün yazıçı Anar öz nüfuzundan istifadə edib. Ədalət Əsgəroğlu deyir ki, Yazıçılar Birliyi sərəncamı almalı idi, tikinti şirkəti isə bunun əvəzində Yazıçılar Birliyinə ev verməli idi.

*- Bildiyim qədər, sizə ümumi mənzil fondunun 10 faizi ayrılmalı idi. Amma 120 mənzilin 10 faizi 9 mənzil eləmir axı...*

- Biz kvadratla razılaşmışıq. Bu da 9 mənzil edir. Hər biri iki otaqlıdır.

*- Siyahıda 33 adamın adı var. 9 evin isə 36 adamın arasında bölünəcəyini deyibsiniz. 3 adamı hansı prinsiplə müəyyənləşdirəcəksiniz?*

- İclas keçirilib. 36 adamı da iclasa çağırdıq. Amma 33-ü gəldi, 3-ü gəlmədi. İndi onlar da gəlib sənədləri imzalayacaqlar. Ramiq bəyi də çağırmışdıq, birinci iclasda iştirak elədi, bu bölgü ilə razılaşmadığı üçün ikinci yığıncağa qatılmadı.

*"Mən iki otaqlı yox, dörd otaqlı ev istəyirəm"*

- Bölgü ilə razı olmayan, 1 mənzilin 4 adam arasında bölünməsi yolu ilə veriləcək paydan imtina edən Ramiq Muxtar dedi ki, o, illərdi ev növbəsindədir: "Demirlər mən 12-ci adamam? Eybi yox, qabaqdakı 9 adam alsın, sonra mən alaram".

*- Ədalət bəy, bu nə qədər ədalətli siyahıdır? Məsələn, siyahıda Arifə Əliyeva kadrlar şöbəsinin müdiridir. Yazardımı?*

- Tərcümələri var, həm də kadrlar şöbəsinin müdiridir.

*- Bəs operator Sevinc Hüseynzadə? Onun da ədəbi yazıları var?*

- Yazar deyil, referentdir. Yazıçılar Birliyində təkcə şair-yazıçılar çalışmır ki. Oranın texniki əməkdaşları da var.

*- Texniki əməkdaşlar Yazıçılar Birliyinin üzvləridirlərmi?*

- Yox.

*- Bəs onda ev kimə verilir? Yazıçılar Birliyinin üzvlərinəmi, yoxsa həm də aparatın texniki əməkdaşlarına?*

- Orda imzalanan protokolda deyilir ki, Yazıçılar Birliyinin üzvləri və əməkdaşlarına şamil olunur.

*- Hökumət tikinti şirkətinə pul ödəyəcəkmi?*

- Hökumət niyə pul ödəməlidir ki?

*- Tikinti şirkətinin rəhbəri nəyə görə pulsuz ev verir?*

- Sahibkar böyük humanistlik edir. Yazıçılar Birliyində çalışan və çalışmayan şair-yazıçıları nəzərə alır, Yazıçılar Birliyinə hörmət elədiyi üçün bu mənzilləri verir.

**"BİZ ANAR MÜƏLLİMİ TƏNGƏ GƏTİRMİŞDİK..."**

*- Ramiq bəy, bu evi hökumət yox, bir tikinti şirkətinin sahibi verir, niyə razı deyilsiz?*

- Yazıçılar Birliyi Anar müəllimin şəxsi mülkiyyəti deyil ki. Yazıçılar Birliyi dövlət tərəfindən maliyyələşən bir qurumdur. Biz Anar müəllimi təngə gətirmişdik ki, evimiz yoxdur. O da Prezident Administrasiyasına məktub yazmışdı. İndi Ədalət müəllim deyir ki, Anar müəllimin nüfuzuna verilib...

**"4 KİŞİNİ BİR QADINLA EVLƏNDİRİRSƏN ELƏ BİL"**

Adı siyahıda olan şair Şaiq Vəlinin Yazıçılar Birliyinin bölgüsünə münasibəti belə oldu:


Ramiq Muxtar (sağda) və Ədalət Əsgəroğlu

- Elə bil ki, 4 kişini bir qadınla evləndirirsən. Uzun illərdi Yazıçılar Birliyində ev növbəsində dura-dura 62 yaşına gəlib çatmışam. Oradan gözlədiyim yeganə şey mənzil idi. Bir evin 4 adam arasında bölünməsini ədalətsizlik sayıram. Yazıçıların hamısına mənzil lazımdı, bu mənzilləri 2-3 adamın arasında bölsəydilər, dərd yarı idi.

**"KOMEDİYANIN AXIRI"**

Verilişin sonunda Ramiq Muxtar bildirdi:

- İndidən deyirəm ki, bu komediyanın axırı necə olacaq. Pul oğurlayırlar. Üç adamın qolu qandallanacaq. Biri Anar, biri Furizə Məmmədova, biri də Rauf Aslanov olacaq bu adamlar.

***Səadət Akifqızı, Cavid Zeynallı***

# Hekayə onluğu səsverməyə çıxarıldı


*AzadlıqRadiosunun mədəniyyət portalı olan oxuzalı.az-da keçirilən "Ədəbi Azadlıq-2012" Milli Müsabiqəsinin şeir onluğu ilə bağlı on-line səsvermə bitdi.*

*İndi isə hekayə onluğu oxucuların ixtiyarına verilir. Hekayə onluğu ilə bağlı on-line səsvermə isə mayın 4-dən 11-cən oxuzalı.az-da davam edəcək.*

Keçid balını 2 müəllif topladığı üçün hekayə onluğuna 11 əsər düşüb:

Alik Əlioğlu: "Qovun onu bu şəhərdən"
Alpay Azər: "Hər şey qaydasındadı"
Anar Fərəcov: "Пятница, на балконе"
Anar Mahmudov: "Yutub"
Aslan Quliyev: "Alacəhrə"
Azər Həsənli (Ataqam): "Şrödingerin qara pişiyi"
NAHİD: "Dərdimi çək"
Reyhan Yusifqızı: "Bir gecənin sirri"
Rəşid Bərgüşadlı: "İşıq pulu"
Rüqəyyə Kəbiri: "Mavayıl"
Sevda Sultanova: "Tarkovski"

# Taksi sürücüsü: «Thank you, very good, good morning»

**Hazırda ingilis dili dərsidir. Dərsdə oturanların əksəriyyətinin yaşı 40-dan çoxdur. Söhbət taksi sürücülərindən gedir. «Bakı Taksi» MMC 500-dən çox taksi sürücüsünə dövlət hesabına ingilis dili kursları təşkil edir.**

«Thank you, very good, good morning, sonra... Bəzi sözləri bilirəm. Düzdür, yaxşı tələffüz etməsəm də, əsas odur ki, mənasını başa düşürəm. Daha əvvəlki kimi turist nəsə deyəndə gözümü döyməyəcəm».

45 yaşlı Nobət Məmmədov ingilis dilində öyrəndiyi bəzi sözləri bizimlə də bölüşür. Deyir ki, dərsləri yaxşı mənimsəmək üçün əlindən gələni edir. Amma gülərək onu da əlavə edir ki, 45 yaşda nəsə öyrənmək göründüyü kimi asan deyil: «Biz 3 dərsdir ki, iştirak edirik. 3 dərsə təxminən 20 söz öyrənmişəm. Məncə, bu yaşda 3 dərsə bu qədər söz öyrənmək pis nəticə deyil. Baxmayın, yaddaş da rol oynayır».



Aprelin sonundan başlanan kurslarda həftədə 2 dəfə dərs keçilir

### «İMTAHANLARDAN KEÇƏ BİLMƏYƏNLƏR TAKSİ SÜRƏ BİLMƏYƏCƏK»

Aprelin sonundan başlanan kurslarda həftədə 2 dəfə dərs keçilir. Dərslər saat yarım davam edir. 6 qrupa bölünən «London taksi» sürücülərinə 3 müəllim dərs keçir. Sürücülərin bəziləri dərslərdə fəal iştirak edir, bəzilərinin gözü isə saatda qalıb, dərsin nə vaxt bitəcəyini gözləyirlər. Amma kursun sonunda yalnız imtahanlardan keçə bilənlərə «Eurovision» müsabiqəsi ərəfəsində taksi sürməyə icazə veriləcək.



Nobət Məmmədov

Odur ki, əksəriyyət əlində kitab müəllimi diqqətlə dinləyib, bəlkə də ilk dəfə eşitdikləri sözləri tələffüz etməyə çalışır:

- «Bizə nə lazımdırsa, onu öyrədirlər. Hələ yazdıqlarımızı tam əzbərləməmişik. Amma 5-10 günə bütün yeni sözləri öyrənməyə çalışırıq».

- «Mənim uşaqlıqdan ingilis, rus dillərinə həvəsim olub. Məsələn, sərnişin gələndə «hello», gedəndə «bye-bye» və başqa sözləri öyrənirik. Amma təbii bizim o yaşımız deyil ki, lap yaxşı öyrənək».

### «SÜRÜCÜLƏRİN NƏTİCƏSİ YAXŞIDIR»

İngilis dili müəllimi Nazir Ağayev deyir ki, tədris zamanı rastlaşdığı ən böyük problem sürücülərin dərsdə sakit otura bilməmələridir:

«Dərslər əvvəl çətin gedirdi, indi yaxşılaşıb. Dərsi xüsusi metodika ilə qurmaq lazımdır ki, onlar dərsdə sakit otursunlar. Bir aylıq tədris proqramı turistlərin verəcəyi suallara uyğun qurulub. Yəni turist sürücüdən nə soruşa bilər və sürücü ona necə cavab verməlidir. Məncə, bir aya istədiyimiz nəticə əldə ediləcək».



Nazir Ağayev

Sürücülərə yeni sözlər verilir. Dərsin sonunda isə iki sürücü yeni sözlərdən istifadə edərək sürücü və turistin dialoqunu qurur. Nazir Ağayev deyir ki, bu yolla onlar həm danışığı, həm də eşitməni inkişaf etdirirlər.

### TAKSİLƏRDƏ POS-TERMİNALLAR QURAŞDIRILACAQ

İngilis dili dərslərindən sonra isə sürücülərə 10-15 dəqiqə ərzində POS-terminallardan istifadə qaydaları öyrədilir. Onların sualları cavablandırılır. «Eurovision»a kimi «London taksi»lərində kartla ödəməni təmin etmək üçün POS-terminallar quraşdırılacaq.

40 yaşlı Mübariz Aslanov isə «London taksi»si sürmür, öz şəxsi maşınından taksi kimi istifadə edir. Deyir ki, onun maşınına POS-terminal quraşdırılması barədə heç nə deməyiblər. Heç ingilis dili dərsləri barədə də. Mübariz Aslanov isə turistlərlə işləmək üçün çıxış yolu tapıb. Bekar olanda özü ingilis dilini öyrənir. İngilis dili müəllimi olan qonşusunun köməkliyi ilə artıq 100-ə qədər saymağı öyrənib: «London taksi»lərinə dövlət hesabına xüsusi ingilis dili kursları təşkil olunub. Amma heyf ki, adi taksi sürücülərini bu kurslara cəlb etmirlər».

Bundan əvvəl Nəqliyyat Nazirliyi taksi sürücülərini özünün Londondan idxal etdiyi taksilərdən icarəyə götürməyə çağırırdı. Mayın 1-dən isə nazirlik sovet istehsalı olan avtomobillərin taksi xidmətindən yığışdırılacağını deyirdi.

Bakıda «Eurovision» mahnı yarışması mayın 22-də, 25-də və 26-da keçiriləcək.

***Nüşabə Fətullayeva***

# Həkimlərin rüşvət üstündə tutulduğu bildirilir

**Mayın 3-də Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi həkimlərin rüşvət alarkən yaxalanmaları haqda məlumat yayıb. Məlumatda deyilir ki, 14 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Oktay Salamov və 9 saylı Tibbi Sosial Ekspert Komissiyasının sədri Bayram Xudaverdiyev ayrı-ayrılıqda Bakı şəhər sakinindən 3000 manat rüşvət tələb ediblər.**

Həkimlərin hər ikisinin rüşvət alarkən yaxalandıqları deyilir. Faktlara əsasən Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb. Bu ittihamı məhkəmə də haqlı saysa, adıçəkilən şəxslər əmlakı müsadirə olunmaqla 4 ildən 8 ilə qədər müddətə azadlıqdan məhrum edilə bilərlər.

Amma hələlik Oktay Salamov və Bayram Xudaverdiyevin yaxınları, ya da vəkillərinin bu ittihamlarla bağlı mövqeyi səslənməyib.

# Müsəlmana harada rahatdır – Avropada, ya Azərbaycanda?


Seyid Camal Əzimbəyli

*Avropada müsəlmanlara qarşı ayrı-seçkilik dalğasının yayılmasının səbəbi nədir və onun Azərbaycana hansısa təsiri varmı? Artıq Avropadakı vəziyyət haqqında beynəlxalq hesabatların hazırlanması nədən xəbər verir? Bəzi ölkələrdə müsəlmanların iş tapması, küçəyə çıxması belə problemlidirsə, Azərbaycanda bu baxımdan vəziyyət necədir?*

"İslam və demokratiya" verilişində bu dəfə Amnesty International təşkilatının Avropada müsəlmanlara qarşı diskriminasiyaya aid hesabatında yer alan faktlar və onların Azərbaycan təzahürləri haqqında müzakirə açılıb.

**MÜSƏLMAN KİMLİYİNƏ QARŞI SƏLİB YÜRÜŞÜ**

Şərqşünas araşdırmaçı Seyid Camal Əzimbəyli deyir ki, bəzi dövlətlər planlı şəkildə İslamın pis tanıdılması, "vəhşi müsəlman" obrazının yaradılması uğrunda iş aparır. Və indi özünü demokratiya beşiyi sayan ölkələrdə tanıdılan İslam gerçək deyil: "Ən böyük demokratiya İslam qaydalarındadır. İstər Avropada, istər Qərbdə həqiqi İslamın gerçək missiyası unudulub".

**BELƏ ÇOX DAVAM ETMƏYƏCƏK**

"Tolerant" Sosial Araşdırmalar Mərkəzinin rəhbəri Azər Rəşidoğlu indi Avropada baş verənləri son illərdə aparılan siyasi təbliğatın nəticəsi kimi görür. ". Bu, ötəri bir tendensiyadır və uzun müddət belə davam edə bilməz".

A.Rəşidoğlu deyir ki, 10-15 il sonra Avropadakı müsəlmanlar artıq gəlmə hesab edilməyəcək, onlar Avropanın bir hissəsinə çevriləcək, qərarvermədə iştirak edəcək, ölkənin ictimai-siyasi həyatında aparıcı söz sahibi olacaqlar. Ekspert bu cür təbliğatın bumeranq effekti olduğunu da xatırladır. Deyir ki, 11 sentyabr hadisələrindən sonra amerikalı və avropalıların ən çox oxuduğu 2 kitab – "Qurani-Kərim" və Cəmaləddin Ruminin "Məsnəvi"si olub.


Azər Rəşidoğlu

**RADİKALLAŞMADAN QAÇA BİLMƏYƏCƏYİK**

A.Rəşidoğlu xatırladır ki, Amerikada "Quran" yandırılanda ərəb ölkələrində buna qarşı ciddi etiraz aksiyası keçirildi. Amma Azərbaycan dindarları kilsə önünə gedib ora gül dəstələri qoydular:"Bu təbliğ olunmalı bir örnəkdir. Lakin, sadəcə, son vaxtlar Bakıda məscidlərin bağlanması, əyalətlərdə cümə namazlarının qadağan olunması, saqqallarının qırxılması, inancına görə insanların həbsə atılması faktları da var".

Ekspert hesab edir ki, "Dini etiqad azadlığı haqqında" qanuna edilən son dəyişikliklər dini sahədə radikallığın artmasına səbəb ola bilər. Bu səbəbdən qanuna yenidən baxmaq, ümumiyyətlə, dinə aid yeni yaxşıca işlənmiş strategiya qurulmalıdır. Əks halda cəmiyyət dini radikallaşmadan və sekulyar-dindar qarşıdurmasından qaça bilməyəcək.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Analoqu olmayan Bilgəh marşrutları...

və bu marşrutlarda getməyə məcbur olan Bilgəh sakinləri



***04.05.2012. Yükləyib: Ülvi***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:




Korrupsiya videoları

**Qızıl mədənlərində Əliyevlərin payı**



Fotoqalereya

**Dünyanın ən bahalı rəsm əsərləri**



Multimedia

**Taksi sürücüsü: «Thank you, very good, good**



Azərbaycanda (VIDEO)

**Bakı sakinlərinin 1 may xatirələri**



Azərbaycanda (VIDEO)

**Milli Parkda "Eurovisiona Dəstək" konserti**




Azərbaycanda (VIDEO)

**ADNA qətliamının ildönümündə qarşıdurma**

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz